IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 24. Issue 01. Oktabr, 2026

MƏNZUM MƏTNLƏRDƏ SƏRBƏST ŞEIR DILI

Ulduz Fərhad Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
"Ədəbiyyat" kafedrasında dosent
ulduzkahraman1@gmail.com
Orcid İD: 0009-0003-4418-9319
https://doi.org/10.5281/zenodo.23170294

Annotasiya:
Məqalədə kəmiyyət üzrə təyin edilən vəznlə keyfiyyət üzrə təyin edilən vəzn paralel şəkildə təhlil edilmişdir. Həmçinin kəmiyyət üzrə təyin edilən vəzndə hecaların uzanmasına görə növləri izah edilmişdir. Tədqiqatçı hesab edir ki, keyfiyyət üzrə təyin edilən vəznlər hecaların vurğulu və ya vurğusuz olması, sayılması hesabına əsas götürülərək sistemləşdirilir. Şeirdə ritmin durğular vasitəsilə yaranması da təhlil edilmişdir. Elmi təhlillərdən məlum olur ki, şeiri şeir edən, nəzmi nəsrdən ayıran ən əsas, fərqləndirici cəhət vəzndir. Poeziyanın vəznsiz, daxili bölgüsüz, qafiyəsiz təsəvvürə gəlməməsi elmi məqalədə təhlil süzgəcindən keçirilmişdir.
Açar sözlər: kəmiyyət üzrə təyin edilən vəzn, keyfiyyət üzrə təyin edilən vəzn, durğu, daxili bölgü

THE LANGUAGE OF FREE VERSE IN POETIC TEXTS

Poetry is created through meter—the arrangement, rules, and proportion of sounds. Meter imparts meaning, content, movement, and poetic scope to a poem. Meter and rhyme are phonetic phenomena. Meter refers to the length of the lines and the overall measure of the poem. According to the laws of meter, the length of the second, third, fourth, and subsequent lines must match that of the first line. Azerbaijani poetry is built upon three metrical systems: the syllabic system (*Heca*), the quantitative system (*Aruz*), and free verse.

The systems of versification found in both Eastern and Western literature are generally divided into two categories:

1. Meters defined by quantity: These are based on the duration (length) of syllables. This category includes ancient (metric) meter and *Aruz* meter.

2. Meters defined by quality: These are based on syllable stress (accented vs. unaccented) and syllable counting. This includes: syllabic meter, syllable-based meter, syllabo-tonic meter, and tonic meter.

Meter determined by quantity is closely related to musical composition; here, the syllable functions much like a musical note. Verse forms of this type are typically linked to song. At the time of their origin, the song and the music formed a unified whole. Such quantitatively structured songs were usually performed by a choir, and it was impossible to conceive of the verse apart from the choir. With the development of written literature, verse became separated

from the choir, and distinct meters emerged. One of the meters employed in European literature is unrhymed verse—that is, poetry that lacks rhyme.

Keywords: meter determined by quantity, meter determined by quality, pause, internal division

Vəzn ahəngin daxili təşkili, ahəngin cüzləridir. "Vəzn" sözünün terminoloji mənası şeirin misralarındakı səslərin düzülüşündən və kəmiyyətindən yaranan ritm və ahəngin ölçüsü deməkdir. "Vəzn" sözünün lüğəvi mənası isə ölçü deməkdir. Yəni vəzn şeirin ölçüsüdür. Şeiri şeir edən, nəzmi nəsrdən ayıran ən əsas, fərqləndirici cəhətlərdən biri vəzndir. Poeziya vəznsiz, daxili bölgüsüz, qafiyəsiz təsəvvürə gəlmir. Vəzn və qafiyə forma elementi olsa da, məzmunun təqdiminə aparııcı təsir göstərir. Vəznin ritmikliyi, qafiyənin gözəlliyi əsərin ideya-məzmununun daha da asanlıqla qavranılmasına yardımçı olur. Vəzn və qafiyə hər dilin özünəməxsus qayda-qanunlarına uyğun şəkildə özünü göstərir. Vəzn, ritm heç də hər hansı şeir nəzəriyyəçiləri tərəfindən yaradılan hazır poetika elementləri deyildir. Dünya ədəbiyyatında müxtəlif vəzn sistemləri vardır.

Şeir vəznlə: səslərin nizam, qayda-qanun və tənasübü ilə yaranır. Vəzn şeirə məna-məzmun, hərəkət və poetik vüsət verir. Vəzn və qafiyə fonetik hadisədir. Vəzn misraların həcmi, şeirin ölçüsü deməkdir. Vəzn qanununa görə, I misranın həcmi nə qədərdisə, II, III, IV və digər misraların həcmi də eyni olmalıdır. Azərbaycan poeziyası 3 vəzn üzərində qurulmuşdur: Heca vəzni, Əruz vəzni, Sərbəst şeir

İstər Şərq, istər Qərb ədəbiyyatında mövcud olan nəzm sistemləri əsasən iki hissəyə bölünür.

1.Kəmiyyət üzrə təyin edilən vəznlər: Hecaların uzanması əsasında yaranır. Bura daxildir. Antik (metrik)vəzn, əruz vəzni

2.Keyfiyyət üzrə təyin edilən vəznlər: Hecaların vurğulu və ya vurğusuz olması, sayılması əsas götürülür. Bura daxildir: sillabik vəzn, heca vəzni, sillabik-tonik vəzn, tonik vəzn

Kəmiyyət üzrə təyin edilən vəzn:

Kəmiyyət üzrə təyin edilən vəzn musiqi yaradıcılığına yaxındır. Buradakı heca musiqidəki nota bənzəyir. Bu tipli nəzmlər adətən nəğmə ilə əlaqədardır. Bu nəzm yarandığı zaman hələ nəğmə musiqi ilə vəhdət təşkil edirdi. Adətən kəmiyyət üzrə düzülmüş nəğmələri xor oxuyurdu. Nəzmi xordan ayrı təsəvvür etmək mümkün deyildi. Yazılı ədəbiyyatın inkişaf etməsi nəticəsində nəzm xordan ayrılmış və eyni vəznlər ortalığa çıxmışdır.

1.Antik (metrik) vəzn: Hecaların uzanmasına görə qurulan vəznlərdən biri antik vəzndir. Antik vəznə eyni zamanda **metrik vəzn** də deyirlər. Metr ölçü mənasındadır. Uzun və qısa hecaların bir-birini əvəz etməsi, tənasübü stopa (bəhr) adlanır. Antik vəzn şeirləri də uzun və qısa hecaların bir-birini əvəz etməsi, tənasübü nəticəsində formalaşan stopalar əsasında yaranırdı. Antik vəzn b.e.ə. VIII əsrdə Yunanıstanda yaranmışdır. Y.e. III əsrində Roma sonralar isə Avropa şeirinin işlək vəzni olmuşdur. Homer, Aristofan, Esxil, Evripid, Sofokl, Pindar antik vəznin təcrübəsini öyrənmiş, ənənəsini dərinləşdirmişlər. Onlar hecanı poetik, xüsusi ahənglə tələffüz etmişlər.

Antik vəzn **qısa və uzun hecalar üzərində** qurulurdu. Uzun və qısa hecaların tənasübü stopa (bəhr) adlanırdı.Tələffüz üçün ayrılan vaxta mora (fasilə) demişlər. Antik vəzndə qısa

hecaların tələffüzü üçün 1 mora, uzun hecaların tələffüzü üçün 2 moradan istifadə olunmuşdur. Stopaları (bəhrləri) qısa və uzun hecaların çarpazlaşması əmələ gətirmişdir. Qısa heca "U" işarə edilir. Uzun heca "_ " işarə edilir. Metr (ölçü) bir neçə stopanın birləşməsi yolu yaranmışdır. Antik vəzni yaradanlar yunan dilinin fonetik-morfoloji və sintetik xüsusiyyətlərini əsas götürmüşdür. Avropalılar antik vəznin xüsusiyyətlərini Yunan və Roma ədəbiyyatından öyrənmişlər. Antik vəznin təsiri altında sonralar ərəblər də əruz vəznini yaratmışlar. Əruzun da ərəbcə mənası metrik deməkdir.

Keyfiyyət üzrə təyin edilən vəznlər:

1. Sillabik vəzn: Türk şeirinin **heca vəzninə** oxşayır. Sillaba sözünün mənası da **heca** deməkdir. Heca vəznində olduğu kimi **sillabik vəzndə də hecaların sayının bərabərliyi** əsas götürülür. Yəni misralarda eyni sayda heca olmalıdır. Sillabik vəzn adətən 10, 11, 12, 13 hecadan ibarət olur. Burada vurğulara əhəmiyyət verilmir, misralarda hecaların sayı bərabər olmalıdır. Sillabik vəzn Rus ədəbiyyatında XIII əsrdən işlədilirdi. Fransız və İtalyan şeirində bu gün belə işlədilməkdədir.

2. Sillabik-tonik vəzn: Bu **vurğusuz hecaların (qısa hecaların-U.Q.) tənasübü** üzərində qurulmuşdur. Məlumdur ki, vurğusuz hecalar qısa hecalara uyğun gəlir. XVIII əsrin ortalarında bu vəzn rus şeirinin əsas vəzni olmuşdur.

3. Tonik vəzn: Vurğulu hecaların (uzun hecaların-U.Q.) tənasübü üzərində qurulmuşdur. Vurğulu hecalar da uzun hecalara uyğun gəlir. Mayakovski əsərlərin çoxunu tonik vəzndə yazırdı.

Avropa ədəbiyyatında işlədilən vəznlərdən biri də **qafiyəsiz şeirdir. Qafiyəsiz şeir qafiyəsi olmayan şeirlərə deyilir.** Rus ədəbiyyatında Puşkin yaradıcılığında bu tipli şeirlərə daha çox rast gəlinir. Vəznə aid xüsusiyyətlər:

- Stopa (bəhr): Misradaxili hecaların sayına deyilir.
- Mora: fasilə, bölgü, təqtiyə deyilir.

Ədəbiyyatşünaslar haqlı olaraq deyirlər ki, məxsus olduğu dildən kənarda vəzn mövcud ola bilməz. Şeir poetik dildir, onun canı da, ruhu da aid oduğu dilin (milli dilinin-U.K.) fonetik təbiəti, ahəng və tələffüz xüsusiyyətdir. Məsələn: Heca vəzninin əlamətləri əsasında formalaşan və yaranan Azərbaycan şeirinin ritm vasitələri Azərbaycan dilinin fonetik quruluşunu, təbiətini özündə ehtiva edir. Şeir poetik nitqdir. Poetik nitq də adi danışıq dilindən ritm ilə fərqlənir. Şeir ritmini yaradan da misrada vurğulu və vurğusuz hecaların müəyyən qanunauyğunluq əsasında növbələşməsidir. Əksər ədəbiyyatşünaslar 2 şeir sisteminin olması qənaətindədirlər:

- Sillabik metrik sistem: heca qruplarının müəyyən simmetriya əsasında qurulmasıdır.
- Tonik şeir sistemi:

Azərbaycan poeziyasında ritm vasitəsilə aşağıdakılar müəyyənləşir:

- Durğu (bölgü),
- Qafiyə
- Alliterasiya
- Vurğu
- Assonans
- Paralelizm

- İntonasiya

Musiqisiz olsa da, şeirdə ritm və ahəng vardır. Şeiri, onun ritmini musiqi müəyyənləşdirmir, bu dilin tələbindən irəli gəlir. Şeirdə ritm saitlərin uzun və qısalığı ilə yaranır. Şeirdə ritm durğular vasitəsilə yaranır. Durğu heca vəznli şeirin özül ritm vasitəsidir, həm də ilkin ölçü vahididir. Ölçü vəznə əsaslanır. Vəzn də ritmi müəyyənləşdirir. Ritmi də əmələ gətirən durğular, yəni fasilələrdir. Durğular sözlər arasına düşür. Durğunun mövcudluğu ritmin əsasını qoyur. Durğunun (fasilələrin) müəyyən simmetriya ilə misrada ardıcıl təkrarı ritmi əmələ gətirir. Ümumiyyətlə, türk dillərində vurğu sözün son hecası üzərinə düşür. Türk dillərində vurğu intensiv xarakter daşımır.

Azərbaycan şeirinin ritmik hissələrində sözlərin avazlı vurğu ilə deyilməsi müşahidə edilir. Durğu heca qruplarının müəyyən qayda ilə düzülüşünə deyilir. Azərbaycan dilində durğu intonasiyadan güc alır ki, bu da öz növbəsində şeir nitqinin ifadəliliyi və dəqiqliyini təmin edir. Vurğu türk dillərinddə ritm vasitəsi kimi mühüm rol oynayır. Türk dillərində vurğu sözün son hecası üzərinə düşür. Sonuncu söz isə avazlı və ya musiqili vurğu ilə deyilir. Qədim türk dillərində təkcə saitlərin yox, samitlərin də alliterasiyası geniş yayılmışdır.

Sezura şeir misrasında yaranan sintaktik fasilədir. Ədəbiyyatşünaslara görə, misra boyu ritmik hissələrin qruplaşması 3 cürdür:

1.Simmetrik durğulu şəkillər: Ritmik hissələr bərabər olur. Məsələn 4+4=8

2. Asimmetrik durğulu şəkillər: Müxtəlif həcmli heca qrupları olur. Azərbaycan dilində asimmetrik durğu sayı daha çoxdur.

3. İpostasa: Eyni bir şeirdə müxtəlif bölgülü misraların bir-birini təqib etməsidir. Petikada buna ipostasa deyilir: Məsələn: 5+3=8; 4+3=7 və s. Yəni: Müxtəlif növ durğuların bir-birini əvəzləməsi olan ipostasa şeirdə sanki musiqi əlvanlığı yaradır. İpostasa hadisəsi antik türk şeir üsüludur.

Azərbaycan şeirində heca vəzninin 14 şəkli işlədilib. Azərbaycan şeirində durğuların işlədilməsinin belə bir xüsusiyyəti vardır. Adətən şeirin I misralarında durğular necə qurulursa, digər misralarda da bu gözlənilir.

ƏDƏBİYYAT

1. Xalid Əlimirzəyev, (2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı
2. Mir Cəlal, Pənah Xəlilov,(2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu
3. Məmməd Əliyev, (2000) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı
4. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı
5. Nizaməddin Şəmsizadə, (2012) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı
6. Rafiq Yusifoğlu, (2001) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı